# RƏHİMOV KOROĞLU İSMAYIL OĞLU



31 oktyabr 1953-cü ildə Oğuz rayonunun Xaçmaz kəndində dünyaya göz açmışdır. 1969-cu ildə orta məktəbi bitirib, Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası - red.) avtomexanika fakültəsinə daxil olmuşdur. 1972-ci ildə ordu sıralarına çağırılmışdır. O, 1974-cü ildə hərbi xidmətini Almaniya Demokratik Respublikasında başa vurduqdan sonra, yarımçıq qalmış təhsilini tamamlamışdır. Əmək fəaliyyətinə Bakı Məişət Kondisionerləri Zavodunda başlamışdır. 1988-ci ildə soydaşlarımızın Qərbi Azərbaycandan qovulması, 1990-cı ilin Qanlı Yanvar hadisələri və 1992-ci il fevralın 25-26-da əsrin ən böyük faciəsi olan Xocalı soyqırımı onun düşməndən qisas almaq hissini daha da ovxarlamışdı. O, 1992-ci il martın 17-də könüllü olaraq Milli Ordu sıralarına yazıldı. 1992-ci il aprelin 30-da 2-ci motoatıcı bölüyün komandiri təyin olundu. Həmin gündən Koroğlunun vo onun rəhbərlik etdiyi bölüyün qəhrəmanlıqlarla dolu şərəfli döyüş yolu başladı. Koroğlunun bölüyü iyunun 13-də Goranboy ərazisində Buzluq, Çartaz və Erkəc kəndlərinin azad edilməsində xüsusilə fərqləndi. yun ayının 14-də başqa bir kəndi - Mənəşlini də yaraqlılardan təmizlədilər. İyunun 15-də onlar daha mühüm bir obyekti- düşmənin yuva saldığı Başkənd kəndini ələ keçirdilər. Bölüyün zəfər yürüşü davam edirdi... Madagiz və Gülüstan kəndləri də bir-birinin ardınca düşmən işğalından azad edildi. 21 iyun 1992-ci il Madagiz kəndi uğrunda yenidən qanlı döyüş gedirdi. Koroğlu sanki bunları qabaqcadan duyurmuş kimi, ratsiyanın önündən çəkilmirdi. Elə bu an tabor komandiri Y.Qarayevin bir neçə döyüşçü ilə birlikdə düşmən mühasirəsində qalması barədə xəbər gəlir. Koroğlu öz dəstəsi ilə döyüşçü dostlarının köməyinə çatır. Əməliyyat uğurla nəticələnir. Madagiz kəndi ikinci dəfə düşməndən azad olunur. 1992-ci il iyulun 3-ü Koroğlu Ağdərə yaxınlığındakı 3-cü sovxozun ərazisinin düşməndən təmizlənməsi uğrunda gedən qanlı döyüşdə qəhrəmanlıqla şəhid oldu. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Ailəli idi. Üç övladı yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı fərmanı ilə Rəhimov Koroğlu İsmayıl oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Bakının küçələrindən biri və Oğuz rayonunun Xaçmaz kəndindəki uşaq bağçası onun adını daşıyır.